# Ensiklopedik zəka sahibi

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov ölkə elminin inkişafında böyük xidmətlərə malik görkəmli şəxsiyyət olmaqla bərabər, həyat fəlsəfəsi, təmizliyi, saflığı, böyük vətən sevgisi olan mənəvi dünyası ilə biz gənclər üçün kamillik məktəbidir. Jan de Labrüyerin dediyi kimi: "həyat əvvəldən axıradək öyrənməkdir". Akademik Urxan Ələkbərovun gördüyü təqdirəlayiq böyük işlərdən gələcək nəsillərin öyrənə biləcəyi çox şeylər var.**

Urxan müəllimin AMEA-nın müxbir üzvü Kazım Ələkbərov kimi görkəmli torpaqşünas-eroziyaşünas alimin ailəsində tərbiyə alması bir çox keyfiyyətləri şərtləndirmişdir. Kazım Ələkbərov Azərbaycanın torpaq örtüyünü tədqiq edərək, Böyük Qafqaz, Kiçik Qafqaz və Lənkəran-Astara zonasında gedən eroziya proseslərini dərindən öyrənmək məqsədilə ərazidəki bütün dağ torpaqlarında minlərlə torpaq kəsimi qoyaraq, eroziya proseslərinin ekologiya ünsürləri ilə sıx əlaqəsini elmi dəlillərlə sübut etmişdir. Azərbaycanda ölkə torpaqlarının eroziya xəritəsi ilk dəfə məhz Kazım Ələkbərovun gərgin əməyi nəticəsində ərsəyə gəlmişdir. Bu dəyərli kartoqrafiya materialları gənc nəsillər üçün torpaqşünasların yetişməsində və eroziya elminin inkişafında böyük rol oynayır.

Yaşanmış illəri insanın sərvəti sayanlar heç də yanılmırlar. Sağlam və güclü olmaqla uzun bir ömür yaşaya bilmək insanın göstərdiyi səylərdən asılıdır. Həyatın mənasını, dəyərini və əhəmiyyətini dərindən dərk edən görkəmli alim, bacarıqlı elm təşkilatçısı, təcrübəli pedaqoq, ictimai xadim, akademik Urxan Ələkbərov elmi-təşkilati işə elmi fəaliyyət kimi yaradıcılıq səviyyəsində yanaşaraq, ömrünü elmi əsaslarının formalaşmasına, elmi düşüncəsinin inkişafına həsr etmişdir.

Akademik Urxan Ələkbərov böyük fədakarlıqla çalışaraq Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini bitirmiş, həmin il SSRİ Elmlər Akademiyasının Ümumi Genetika İnstitutunun aspiranturasına daxil olmuşdur. 1983-cü ildə AMEA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. Müxtəlif illərdə AMEA-nın Botanika İnstitutunun direktoru, AMEA-nın vitse-prezidenti, Genetika və Seleksiya İnstitutunun direktoru, AMEA-nın müşaviri kimi vəzifələrdə fəaliyyət göstərmişdir.

Akademik Urxan Ələkbərovun oğlu, biologiya üzrə fəlsəfə doktoru, tarix üzrə elmlər doktoru, professor, 200-dən artıq elmi və elmi-kütləvi əsərin, o cümlədən 23 kitab və kitabçanın müəllifi Fərid Ələkbərli tərəfindən yüzə yaxın orta əsr tibb əlyazması ilk dəfə olaraq tədqiqata cəlb edilmiş, ərəb və farsdilli abidələrin üzərində apardığı tədqiqatlar nəticəsində ilk dəfə olaraq bu mənbələrdə təsvir edilmiş 724 növ dərman bitkisini müəyyən etmiş və araşdırmışdır. Araşdırılmalar nəticəsində orta əsrlər zamanı Azərbaycanda mövcud olmuş "sağlamlığın qorunması konsepsiyası" aşkar, tədqiq və bərpa edilmişdir. Vatikan Arxivlərində uzunmüddətli elmi araşdırmalar aparan ilk azərbaycanlı olmuş və Azərbaycanda ilk orta əsr əczaçılıq terminləri lüğətini tərtib etmişdir. Hər zaman qəlblərdə yaşayacaq alim Fərid Ələkbərlinin bu qısa ömrünə nəzər saldıqda nə qədər mühüm araşdırmalar apardığının şahidi olursan.



Akademik Urxan Ələkbərov daima gənclərin qayğı və problemləri ilə maraqlanır. Ömrünü təhsil, maarif yolunda şam kimi əridən akademik Urxan Ələkbərovun müstəsna xidmətləri sayəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını Avropanın qabaqcıl təhsil ocaqlarından birinə çevrilmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin "Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm" çağırışından, gəncliyə olan böyük inamından və sevgisindən ilham alaraq akademik Urxan Ələkbərov həmişə gəncliyin yanındadır.

İstedadlı gəncliyə diqqət, qayğı göstərən, onlara geniş meydan verən Urxan müəllim Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında demokratik bir ab-hava, münbit mühit yaratmışdır. Mən ilk dəfə 2012-ci ildə birinci yerin qalibi olduğum Doktorantlar və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı zamanı böyük alimlə tanış oldum və o zaman Urxan müəllimin dərin intuisiyaya, müşahidə qabiliyyətinə malik olduğunu görmüşdüm.

Daha sonralar 2020-ci ildə möhtərəm Prezidentimiz İlham Əliyev siyasi kursunun tədqiqatına həsr olunmuş "Azərbaycan Respublikasının milli inkişaf sistemi: İlham Əliyevin siyasi strategiyası kontekstində" dissertasiya işimin müdafiəsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında akademik Urxan müəllimin sadəliyinin, səmimiliyinin, ürək genişliyininin, xeyirxahlığının şahidi oldum və deyərdim hətta bir ata sevgisi, ata qayğısı ilə əhatə olundum. Böyük alimin coşqun fəaliyyəti, elmi potensialı mənə də sirayət etmişdir. Hər dəfə bu sevimli insanla görüşəndə hiss və həyəcanlarımı boğa bilməmişəm. Urxan müəllim bunu dərhal hiss etmiş, mənə böyük diqqət, qayğı göstərmişdir. Bütün bunlar Dövlət İdarəçilik Akademiyasını məni və hər bir istedadlı gəncin isti evinə, ocağına çevirmişdir.

Görkəmli elm xadimi Urxan Ələkbərovun elm və inkişafın planlaşdırılması və idarə edilməsinə aid konsepsiya və ideyaları dünyada tanınır və dəstəklənir. Ona istinadlar və ondan sitatlar bir çox beynəlxalq mənbələrdə, o cümlədən "Beynəlxalq lider və seçilmişlərin deyimləri" bölmələrində dərc edilir. Bu mənbələrdə Urxan Ələkbərov "Azərbaycan genetiki və inkişaf üzrə ekspert" kimi təqdim edilir. Biomüxtəlifliyin mühafizəsi və genetik sistemlərin davamlığını artırmaq və bu məqsədlə antimutagen, antikartsinogen, geroprotective vasitələrinin aşkar olunması, istifadəsi sahəsində yeni elmi konsepsiyalar, "beyin axını" əvəzinə "gen axını" termin və anlayışı, "texnoloji geriləmə ilə inkişaf" və s. kimi tədqiqatlar alimin əsas elmi nailiyyətlərinə daxildir. Akademik davamlı inkişafın məqsədi olan ekoloji sivilizasiya konsepsiyasının, genofondun mühafizəsi, davamlı və biliyə əsaslanan inkişaf, ekoloji sivilizasiyanın planlaşdırılması, idarə edilməsi və qiymətləndirilməsi istiqamətində konsepsiyaların müəllifi olmuşdur.

Akademikin yazıları dövlətçilik maraqlarına və dünya elmindəki proseslərə istiqamətləndirilir. Akademiyada ardıcıl olaraq Ümummilli lider Heydər Əliyevin fəaliyyətinə dair konfranslar keçirilir və Prezident İlham Əliyevin ideyaları akademik Urxan Ələkbərovun elmi həyatının əsasını təşkil edir. Akademik Urxan Ələkbərov Prezident İlham Əliyevin innovativ idarəetmədə iki yanaşmasını xüsusi bildirib ki, onlardan biri dövlət inkişaf proqramlarının milli inkişaf proqramlarına transformasiyasıdır.

Alim həmçinin dünyada orta və ali məktəblər üçün davamlı insan inkişafı və ekoloji sivilizasiyanın idarə edilməsinə dair ilk dərsliklərin müəllifidir. O, mühüm elmi istiqamətləri, davamlı yaradıcılıq axtarışları, böyük araşdırmaları marağa səbəb olan ciddi və dəyərli elmi nəticələr almışdır.

Akademik Urxan Ələkbərov BMT-də koordinator (əlaqələndirici), insan inkişafı üzrə müvəkkil, məsləhətçi, təlimçi, Avropa Yenidənqurma və İnkişaf Bankı, YUNESKO-nun "İnsan və Biosfer" Proqramı üzrə Beynəlxalq Koordinasiya Şurasının üzvü, Amerika Sağlamlıq Fondunun koordinatoru, Ətraf Mühitin Sağlamlığı Beynəlxalq Proqramın Rəhbər Komitəsinin üzvü, Dünya Səhiyyə Təşkilatının Kimya Təhlükəsizliyi Proqramı, qrup rəhbəri, Beynəlxalq Həyat İnstitutunun və digər xarici ölkələrin elmi qurumlarında və Azərbaycan, ABŞ, Birləşmiş Krallıq, Niderland, Türkiyə, Rusiya və Gürcüstanda dərc olunan elmi jurnallar və məcmuələrin redaksiya heyətlərinin üzvü olmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü,Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü, UNECO-nun Azərbaycan Milli MaB (İnsan və Biosfer) Komitəsinin sədridir.

AMEA-nın həqiqi üzvü Urxan Ələkbərov Gürcüstan Dövlət Aqrar Akademiyasının fəxri doktoru, Azərbaycan Diplomatik Akademiyasının təsisçilərindəndir, inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində dünyada tanınmış alim və inkişaf üzrə ekspertdir. "Yaşıl" təfəkkür və "yaşıl" iqtisadiyyata əsaslanan ekoloji sivilizasiya konsepsiyasının müəllifidir. Bu sahədə ixtisaslaşan akademik UNİCEF-də çalışır.

Bununla yanaşı akademik Urxan Ələkbərovun məruzələri beynəlxalq təşkilatlarda dinlənilir. O həmçinin ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, Niderland və digər ölkələrdə beynəlxalq komitə, rəhbər komitə və şuraların, elmi jurnallarda redaksiya heyətinin rəhbəri və üzvüdür.

Bu günlərdə ad günü olan rektor akademik Urxan Ələkbərovu səmimi qəlbdən təbrik edir, bundan sonra da Azərbaycan elminin inkişafı yolunda səylə çalışmaq əzmi arzulayıram. Həyatda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına tale yolumun düşməyinə çox xoşbəxtəm ki, Urxan Ələkbərov kimi böyük alimin qayğısından bəhrələndim. Biz gənclərin Sizin kimi alimlərə həddsiz ehtiyacı var, bunlar sabahkı günlər üçün ən böyük stimuldur.

**Günel MƏLİKLİ**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**